*Şanlı Qələbədən sonra qanadlı fikirlərlə, gözəl arzularla, sevinclə, qürurla və gələcəyə nikbin baxışlarla növbəti Novruz bayramını qeyd etdik, rəhbərimizə, xalqımıza, ordumuza düşərli olacağına ürəkdən inandıq. Əyilən qəddimiz düzəlib, başımız ucalıb, yerə dikilən gözlərimiz nura bələnib, inanırıq ki, bayram süfrələri bəzəyən ailələr əvvəlcə, şəhidlərimizə Allahdan rəhmət diləyib, qazilərimizə cansağlığı arzulayıblar, bizə sonsuz sevinc yaşadanlara minnətdarlıq və şükranlıqlarını bildiriblər. Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 30 ilə yaxın Qarabağın üzərinə qara bulud kimi çökmüş işğalçı, qəsbkar, yadelli düşməni əzərək məhv etdi, bir vaxtlar öz ordusu ilə lovğalanan erməni generalları və zabitləri əsgərlərini darda qoyaraq "dovşan kimi" qaçdılar, dilənib-dolanıb yığdıqları hərbi texnikaların külləri göyə sovruldu, bir çoxu da qənimət kimi götürüldü, düşmənin beli qırıldı, başı əzildi. İgid oğullarımızın qanı-canı bahasına işğaldan azad edilən torpaqlarımızda üçrəngli bayrağımız qürurla dalğalanır, bu yerlərə yeni həyat qayıdır, düşmənin xarabalığa çevirdiyi torpaqlarda dirçəliş başlayıb, quruculuq işləri sürətlə aparılır, yollar çəkilir, hava limanları inşa olunur, "Ağıllı şəhər" və "Ağıllı kənd"lər qurulur.*

*Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikində bildirib ki, biz döyüşərək, qan tökərək, şəhidlər verərək doğma diyarımızı erməni işğalından azad etdik və Qarabağa qayıtdıq. Biz artıq burada yerləşmişik, doğma diyarımıza qayıtmışıq. Bütün Qarabağ və Şərqi Zəngəzur bölgəsində çox genişmiqyaslı abadlıq işləri aparılır, şəhərlər yenidən qurulur, kəndlər yenidən salınır. Əlbəttə ki, bizim əsas vəzifəmiz keçmiş məcburi köçkünləri tezliklə bu doğma diyara qaytarmaqdır. Qarabağa və Şərqi Zəngəzura əbədi qayıtmışıq və burada, tarixi torpaqlarımızda bundan sonra əbədi yaşayacağıq.*



# Qarabağa və Şərqi Zəngəzura əbədi qayıtmışıq

## Ruhunu saxlayan, əyilməyən, sınmayan Şuşa

2020-ci ilin payızında bütün dünya böyük bir həqiqətin şahidi oldu ki, Ermənistanın 30 ilə yaxın işğalda saxladığı torpaqlar azad edilib, 44 gün davam edən Vətən müharibəsindəki şanlı qələbəmiz müzəffər ordumuzun, əsgər və zabitlərimizin şücaəti, qəhrəmanlığı sayəsində qazanılıb. Azərbaycanın hərb tarixinə qızıl hərflərlə həkk olunan bu qələbə rəşadətli ordumuzun və Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərkərdəlik şücaəti sayəsində əldə olunub. Uzun illər davam edən Qarabağ münaqişəsi artıq keçmişdə qalıb.

Sıldırım qayaların üstündə, Qafqazın konservatoriyası, tariximizin bir parçası, havası can dərmanı, suyu diriliş cövhəri olan Şuşa qədim qala divarları ilə düşmənin başına od ələyən igidlərimizi qorudu, onları doğma övladı kimi öz sinəsinə sıxdı, ölməz ruhu ilə yağılara meydan oxudu. Şuşanın işğaldan azad edilməsi Vətən müharibəsinin və tariximizin ən şərəfli səhifəsidir. Cəsarətlə demək olar ki, Şuşa tarixin və təbiətin yaratdığı bir abidədir, canlı muzeydir, dünyada bənzəri olmayan yaşayış məskənidir. İşğal müddətində düşmən bu şəhəri nə qədər söküb dağıtsa da, onun milli koloritini yox etməyə çalışsa da, daş kitabələrini özününküləşdirməyə cəhd etsə də ona gücü çatmayıb, qədim qalanın milli ruhunu yox edə bilmədi. Düşmən Şuşada ən ağır məğlubiyyətə uğradı, işğalçılar darmadağın edildi.

Vətən müharibəsindən dərhal sonra Azərbaycan reallıqları dünyanın gözü qarşısında ortaya qoyuldu. Heç yerdən və heç kimdən bir manat yardım almadan işğaldan azad edilən torpaqlarda bərpa və quruculuq işlərinə başlanıldı. O cümlədən Şuşa şəhərində böyük işlər həyata keçirilir və bu, möhtəşəm və sürətli quruculuq Şuşa şəhərinin baş planı əsasında aparılır. Qeyd etmək lazımdır ki, Şuşa şəhərinin baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb, Azərbaycanın mədəniyyət paytaxtında həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulur. Ardıcıllıqla, yüksək məharətlə, doğmalıqla görülən işlər Şuşanın dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəyinə böyük əminlik yaradır.

Yuxarıda dediyimiz kimi, Baş plan əsasında bərpa edilən və yenidən qurulan Şuşanın keçmiş və müasirlik vəhdəti sıx bağlarla bir-birinə bağlanır, tarixi binalar qorunub saxlanır, abidələr ucaldılır, şəhərin mərkəzi yeni görkəm alır. Birinci mərhələdə Şuşada 25 yaşayış binası inşa olunacaq ki, onlar da üç, dörd və beş mərtəbədən ibarət olacaq. Bu da şəhər sakinlərinin tezliklə doğma Şuşaya qayıtmalarına imkan yaradacaq. Eyni zamanda, Şuşa şəhərinin özünəməxsusluğunu onun coğrafi quruluşu və mövqeyi formalaşdırır. Yuxarıda qeyd etdiyimiz kimi, şəhər bir tərəfdən təbii müdafiə səddi-qayalıq, digər tərəfdən vaxtilə müdafiə məqsədilə inşa edilmiş qala divarları ilə əhatə olunub.

Mütəxəssislərin fikrincə, şəhərin memarlıq mühitini Seyidlər, Qurdlar, Culfalar, Quyuluq, Çuxur, Hacı Yusifli, Dörd Çinar, Saatlı, Mərdinli və digər bu kimi məhəllələrin ölçüləri, oradakı binaların mərtəbəliliyi, fasadları, istifadə edilən yerli materiallar, tağlı konstruksiyalar, həmçinin dam örtükləri, eyvanlar və digər memarlıq elementləri formalaşdırır. Şuşanın bərpası ilə bağlı qısa müddət ərzində böyük işlər görülüb. İlk növbədə "Zəfər" yolu çəkilib. Əlavə magistral yol da çəkilir, Şuşanın elektrik təsərrüfatı bərpa edilib, yarımstansiya tikilib. Şuşaya suyun verilməsi bərpa edilib və indi iki mənbədən Şuşaya su gəlir. Şuşanın tarixi abidələrinin bərpasına başlanılıb. Vaqifin məqbərəsi və ermənilər tərəfindən dağıdılan Vaqifin büstü bərpa edilib. Üç məsciddə təmir-bərpa işləri gedir, Yuxarı Gövhərağa məscidinin təmiri başa çatıb. Saatlı və Aşağı Gövhərağa məscidlərinin təmiri ilə bağlı göstərişlər verilib. Bu məscidlərin təmirini Heydər Əliyev Fondu öz üzərinə götürüb. Natəvan bulağı bərpa edilib. Bundan başqa, Daşaltı kəndində məscidin, Şuşa Radio-Televiziya yayım qülləsinin, Şuşa Şəhər Xəstəxanasının təməlləri qoyulub. Heydər Əliyev Fondu tərəfindən Aşağı Gövhərağa məscidində və Mehmandarovların malikanə kompleksində bərpa işləri aparılır. "Qarabağ" hoteli, Bülbülün Ev-Muzeyi bərpadan sonra istifadəyə verilib, dahi bəstəkar Üzeyir Hacıbəylinin heykəli ucaldılıb.

Ən əsası isə Şuşa şəhərinin mədəni həyatı özünə qaytarılıb, artıq bu qədim şəhərdə mədəni-kütləvi tədbirlər keçirilir. 2021-ci il mayın 12-də Şuşa şəhərində "Xarıbülbül" festivalı keçirildi. Həmin festivalda çıxış edən Qalib Ali Baş Komandan İlham Əliyev bildirdi ki, bu tövsiyəni festivalın təşkilatçısı olan Heydər Əliyev Fonduna mən vermişdim, çünki Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı vardır. Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır. Ötən ilin avqust ayında 1982-ci ildə ulu öndər tərəfindən açılışı edilən və 2021-ci ildə Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Vaqifin möhtəşəm məqbərəsinin önündə şairin adını daşıyan poeziya günləri keçirildi. Mübaliğəsiz demək olar ki, həmin tədbirlər Şuşanın ilkinliyini, ruhunu, aurasını, mədəniyyət paytaxtı adını özünə qaytardı.

Təsadüfi deyil ki, Prezident, İlham Əliyev Şuşa işğaldan azad edilərdən sonra bu şəhərə yeddi dəfə səfər edib və həmin səfərlərdən sonra qayaların üstündəki qədim yurd yerimizin siması sürətlə dəyişir, bir sözlə, Şuşanın tarixi əzəməti və haqqı geri qaytarılıb. Dövlət başçısı həm də 2022-ci ili "Şuşa İli" elan edib. Elan edilib ki, 1752-ci ildə Pənahəli xan tərəfindən təməli qoyulan Şuşa şəhərinin 270 illik yubileyi böyük təntənə ilə qeyd ediləcək.

## Xarabalıqlar üzərində qurulan, tikilən, dirçələn Ağdam

Bu yerlərə, işğaldan azad edilən torpaqlara duman-çənlə, buludların dolub- boşaldığı məqamla, gah çiskin, gah da şıdırğı yağan yağışla, qaranquşun qanadları üstündə gələn yaz fəsli insanların çöhrəsində sevinclə, şövqlə bərq vurur. Ağdamda kimi dindirsən deyəcək ki, sevincimizin həddi-hüdudu yoxdur, uzun illər həsrətini çəkdiyimiz yurd yerinə qayıdırıq, əcdadlarımızın torpağına sahib çıxırıq. Bu xoşbəxtliyi bizə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev nəsib edib. Bu xoşbəxtliyi təkcə bizə yox, keçmiş məcburi köçkünlərə yox, bütün Azərbaycan xalqına bəxş edib. İndi sözün əsl mənasında, Ağdamın xarabalıqları üstündə müasir bir şəhər inşa olunur. Yeni Ağdamın təməlini də dövlət başçısı qoyub və Baş plan əsasında tikilən şəhərdə həyata keçirilən çox böyük infrastruktur layihələr, yeni yollar, sənaye parkı, yaşayış binaları, Ağdam şəhərinin mərkəzində tarixi-mədəni ərazi salınacaq. 22,5 hektarlıq ərazini əhatə edən bu məkanda Pənahəli xanın İmarət kompleksi, Çörək muzeyi, Dram teatrı, İşğal və Zəfər muzeyləri kompleksi olacaq. Ərazinin bir başında İşğal muzeyi, digər başında isə Zəfər muzeyi yerləşəcək. Onların arasında açıq səma altında 18 hektarda Memorial bağ salınacaq. Təkcə meşə-park deyil, Dağüstü park, İmarət kompleksi, Zəfər muzeyi, qayıqla gəzintiyə çıxmaq üçün kanal, üzərində təsvirlər verilən göl, şəhərətrafı bağlar və sair "ruhlar şəhəri" adlandırılan Ağdamı tək Azərbaycanın deyil, Qafqazın ən gözəl şəhərinə çevrilməsinə səbəb olacaq. Ağdam şəhəri müasir üslubda bərpa edilsə də, Memorial bağda xarabalıqlar, dağıdılmış binalar saxlanılacaq. Onlar olduğu kimi qorunacaq ki, gələcək nəsillər bu tariximizi unutmasın, mənfur düşmənin xalqımızın başına gətirdiyi faciələri bilsin. Eyni zamanda, bu xarabalıqlar hər kəsə müharibənin nə qədər acı nəticələrə gətirib çıxardığını da anladacaq.

İşğaldan azad edilmiş Ağdam şəhərində hazırda 1 nömrəli məktəb üçün 960 şagird yerlik binanın tikintisi sürətlə davam etdirilir. Məktəbin inşasına ötən ilin dekabrında başlanılıb. İki hektar ərazidə inşa edilən üçmərtəbəli məktəb binası üç blokdan ibarət olacaq. Məktəb binasında 40 sinif otağı, laboratoriya və fənn kabinələri, akt və idman zalları, kitabxana, yeməkxana, muzey, xidməti otaqlar yaradılacaq. Bina istilik, elektrik, havalandırma və müşahidə sistemləri ilə təmin ediləcək. Məktəbin həyətində futbol və basketbol meydançaları, nasosxana, qazanxana, transformator binası, içməli və yanğın su hovuzları, çirkab su anbarı inşa ediləcək. İşlər yüksək keyfiyyətlə, tikinti normalarına uyğun şəkildə aparılır. Hazırda binanın zirzəmi hissəsində dəmir-konstruksiya, qəlib işləri görülür. Binanın tikintisinin bu ilin sonunda yekunlaşdırılması nəzərdə tutulur, tikintidə çalışan Xəqani Qurbanov işğaldan azad edilmiş ərazilərin bərpasında iştirak etdiyi üçün qürur duyduğunu deyir. Mən çox sevinirəm ki, torpaqlarımız işğaldan azad edilib. Aparılan tikinti işlərində mən də iştirak edirəm. Ağdamın tikintisində mənim də əməyim var. Bunun üçün çox qürurluyam.

## Zəngilan – çinarlar yurdu

Şərqi Zəngəzur iqtisadi rayonuna Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları daxildir. İqtisadi rayonun ümumi ərazisi 7,47 min kvadratkilometr, əhalisinin sayı 343,5 min nəfərdir. Həmin rayonlarda iqtisadiyyatın əsas sahələrini kənd təsərrüfatı, sənaye və turizm təşkil edəcək. Şərqi Zəngəzurda zəngin təbii ehtiyatlar mövcuddur və bu bərəkətli torpaqlarda qızıl, civə, mərmər, üzlük tikinti daşları, kopal və digər mineral ehtiyatlar vardır.

Minalar təmizləndikcə azad edilən torpaqlarda quruculuq işlərinə, ilk əvvəl həyat əhəmiyyətli infrastruktur layihələrin - elektrik xətlərinin, yolların çəkilişinə başlanılıb. Həm Qarabağda, həm də Şərqi Zəngəzurda bütün elektrik təsərrüfatı, yeni xətlər, transformatorlar, yarımstansiyalar, elektrik stansiyaları qurulur. Əsas hədəflərdən biri də işğaldan azad edilən bölgələrin yol təsərrüfatının yenidən qurulması idi. Qələbədən dərhal sonra bu istiqamətdə genişmiqyaslı işlərə start verildi. Ən əvvəl Ermənistanla həmsərhəd olan Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonları ərazisində 700 kilometrə yaxın hərbi yol çəkilib. Özü də çətin şəraitdə, Ermənistan tərəfdən yol çəkənlərin atəşə tutulması şəraitində bu xidməti yollar başa çatdırıldı və hərbçilərimiz bütün sərhədboyu əsas məntəqələrdə yerləşdi. Qürurla deyə bilərik ki, Zəfər yolu adlandırılan Füzuli-Şuşa yolu bir ilə çəkildi. Əlavə ikinci magistral yol çəkilir, eyni zamanda, Füzuli-Hadrut, Füzuli-Cəbrayıl, Horadiz-Ağbənd, Zəngilan-Qubadlı-Laçın yollarında inşaat işləri, körpülərin tikintisi uğurla davam etdirilir.









İşğaldan azad edilən torpaqlarda ilk "Ağıllı kənd"pilot layihəsi Zəngilan rayonu ərazisində həyata keçirilir. Xatırladaq ki, həmin kəndin təməli 2021-ci ilin aprel ayında dövlət başçısı İlham Əliyev tərəfindən qoyulub. Layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılır. "Ağıllı kənd" rayonun 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edir. Burada 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi başa çatmaq üzrədir.

Keçmiş sovet dönəmində Zəngilan rayonunda hava limanı olmayıb. Amma indi Zəngilanda beynəlxalq hava limanı inşa olunur və bununla da ölkəmizin nəqliyyat-logistika mərkəzlərinin sayı artacaqdır. Qeyd edək ki, uçuş-enmə zolağının uzunluğu 3 min metr olan hava limanının tikintisinə 2021-ci ilin may ayında başlanılıb. Zəngilan Beynəlxalq Hava Limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etmək imkanına malik olacaq. Hava limanının tikintisinin bu il başa çatdırılması nəzərdə tutulub. Bu hava limanı Zəngilanın gələcək sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq.

Bundan başqa, Zəngilanda turizm, kənd təsərrüfatı, nəqliyyat, logistika, ətraf mühitin qorunması, bura qayıdacaq insanlar üçün lazımi şəraitin yaradılması istiqamətində işlər sürətlə aparılır. Artıq "Zəngilan" yarımstansiyası işə salınıb. Həmin elektrik stansiyası rayon ərazisində yerləşən hərbi hissələri, sərhəd xidmətinin obyektlərini, bir sıra infrastruktur layihələri həyata keçirən dövlət və yol-tikinti şirkətlərini elektrik enerjisi ilə təmin edir. Qeyd edək ki, əhalinin artımını və gələcək inkişafı nəzərə alaraq stansiyanın gücü 50 meqavata çatdırılıb.

Təbiətin nadir incilərindən olan, çinar ağacları ilə zəngin Bəsitçay Dövlət Təbiət Qoruğu uzun illər ərzində ermənilər tərəfindən vəhşicəsinə dağıdılıb və talan edilib. İşğaldan sonra 107 hektar ərazisi olan qoruq bərpa edilir. Ermənilərin vurduğu yaralar aradan qaldırılır, təbiət öz ahənginə qayıdır. Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin təşkili ilə bağlı tədbirlər haqqında" sərəncamı bu təbii incinin gələcək gözəlliyindən və turizm axınından xəbər verir.

İşğaldan azad edilən torpaqlar yenidən canlanır, erməni vəhşiliyinin ağır izləri aradan qaldırılır, yeni şəhərlər və kəndlər tikilir, özü də hər bir iş zərgər dəqiqliyi ilə, yüksək keyfiyyətlə və müasir texnologiyalarla həyata keçirilir. Dövlət başçısının qətiyyətlə və çox möhkəm inamla dediyi biz Qarabağa və Şərqi Zəngəzura əbədi qayıtmışıq sözləri gələcək uğurlardan xəbər verir.

**Salman ALIOĞLU,**
**"Respublika".**